


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 38 (23.925)

25 fevral 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Dünya İqtisadi Forumunun Prezidenti Borge Brendenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dünya İqtisadi Forumunun Prezidenti Borge Brende ölkəmizə səfərləri zamanı Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin Azərbaycan Mərkəzinin açılışında iştirak etmələrini məmnunluqla vurğulayıb. O, ölkəmizin bütün sahələrdə əldə etdiyi iqtisadi uğurların əhəmiyyətini qeyd edib, Azərbaycan iqtisadiyyatının regionda vacib amilə çevrilməsinin önəmini bildirib.

Prezident İlham Əliyev Azərbaycanla Dünya İqtisadi Forumu arasında əməkdaşlığın yüksək səviyyədə həyata keçirilməsindən razılığını ifadə edib. Dövlətimizin başçısı Dünya İqtisadi Forumu ilə ölkəmiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu deyib.

Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Moldova parlamentinin sədri İqor Qrosu ilə videoformatda görüşüb.

“Sənaye ili” – 2022

## Muxtar respublikada həyata keçirilən sənaye siyasəti özəl sektorun inkişafına, yeni təşəbbüslərin dəstəklənməsinə və müasir idarəetmə vərdişlərinin tətbiqinə əsaslanır

***Naxçıvan Muxtar Respublikası tarixən aqrar region olsa da, zəngin sənaye ənənələri ilə seçilir. Muxtar respublikanın təbii sərvətləri hələ ötən əsrdən başlayaraq burada mineral sular, daşduz, travertin və digər sahələrin sənaye üsulu ilə istehsalına imkan verib. Keçmiş ittifaq səviyyəsində tanınan və satışı həyata keçirilən onlarla Naxçıvan məhsulları, həm də böyük sənaye təcrübəsinin qazanılmasına şərait yaradıb. Lakin ötən əsrin səksəninci illərinin sonu, doxsanıncı illərinin əvvəllərində məlum durğunluq digər sahələr kimi, sənaye istehsalına da öz mənfi təsirini göstərib. Müstəqilliyin ilk illərində iqtisadiyyatın digər sahələri kimi böhran dövrünü yaşayan sənaye sahələrinin inkişaf etdirilməsinin qarşısını alan səbəb həm də muxtar regionun blokada vəziyyətinə salınması olub.***

Ancaq vurğulamaq lazımdır ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan milli inkişaf strategiyası və iqtisadiyyata yeni yanaşmalar region sənayesinin də mövcud reallıqlar daxilində transformasiyasını təmin edib. Əgər ikinci minilliyədək daxili bazar, əsasən, idxal hesabına qorunurdusa, cəmi bir neçə il sonra yerli məhsulların, xüsusilə ərzaq məhsullarının istehsalının artması yeni iqtisadi hədəflərin mövcudluğundan xəbər verirdi. Müqayisənin ən yaxşı təsəvvür elementi olduğunu nəzərə alsaq, bu nümunəni misal gətirməklə mənzərəni tam təsvir etmək mümkündür: 2003-cü ildə muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi cəmi 168 min manatdan bir az artıq idi. Həmin dövrdə muxtar respublika üzrə sənaye məhsulunun istehsal həcmi (17 min 600 manat) təxmini olaraq, indiki orta səviyyəli iki-üç ailə təsərrüfatının illik gəliri qədər idi. 2003-2020-ci illərin müqayisəli göstəricilərində maraqlı məqamlardan biri də budur ki, əgər bu dövrdə ümumi daxili məhsul 17,3 dəfə, kənd təsərrüfatı 7,5 dəfə, əhaliyə göstərilən ödənişli xidmətlər 17,4 dəfə, bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 14 dəfə olsa da, ən böyük artım sənaye məhsullarının istehsal həcmində qeydə alınmışdır: 59,1 dəfə!

Bu göstərici onun təsdiqidir ki, ötən illər ərzində dövlətin mühüm sənaye siyasəti olub və bu siyasət həyata keçirilən iqtisadi tədbirlərin ana xəttini təşkil edib. Digər bir misal. Məlumdur ki, sənaye istehsalı artdıqca enerjiyə tələbat da artır və enerji təminatı həll edilmədən yeni sənaye müəssisələrini yaratmaq mümkün deyil. Xatırlayaq ki, 2003-cü ilin sonuna muxtar respublikada 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, 2020-ci ildə bu göstərici artıq 9-a çatdırılmışdır.





Təsadüfi deyil ki, ölkə başçısı cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına son səfəri zamanı muxtar respublikanın inkişaf templərini yüksək qiymətləndirərək qeyd etdi ki: ***“…Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb…”***

Yeri gəlmişkən bunu da qeyd edək ki, ötən il muxtar respublikada ümumi daxili məhsul istehsalı 3 milyard 16 milyon 315 min manat təşkil edib ki, bu da bir il öncəki göstəricidən 2,4 faiz çoxdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri isə 27 faizlik payla sənaye sahəsi tutur.

Muxtar respublikanın sənaye siyasətində uğurlu nəticələrə nail olunmasının bir çox səbəbləri var. İlk səbəb ondan ibarətdir ki, muxtar respublikada özəl sektorun inkişafında dövlətin özü maraqlıdır. Elə bu maraqdan irəli gəlir ki, bu gün istehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 92,3 faiz təşkil edir. Bu faiz ölçüsü, eyni zamanda onu göstərir ki, muxtar respublikada sənaye sahibkarlığına böyük maraq var və dövlətin də dəstəyi nəticəsində sənaye sahəsində çalışan sahibkarlar tərəfindən hər il yeni istehsal sahələri yaradıldığının şahidi oluruq. Xatırladaq ki, ötən il muxtar respublikanın sənaye müəssisələri tərəfindən 1 milyard 69 milyon 655 min 700 manat dəyərində məhsul istehsal olunub ki, bu da bir il öncəki göstəricini 1,7 faiz üstələyir.

Müasir dövrün sənayeləşməsində əsas trendlərdən biri sahibkarlıq təşəbbüslərinin dəstəklənməsidir. Bu gün muxtar respublikada sahibkarlığın inkişafı üçün yaradılan münbit şərait hər birimizə məlumdur. Ancaq məsələnin əsl tərəfi budur ki, muxtar respublikada sahibkarlıq təşəbbüslərinin dəstəklənməsində müvafiq dövlət qurumları böyük rol oynayır. Bu da ondan irəli gəlir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hər il ənənəvi olaraq sahibkarlarla görüş keçirir və bu görüşdə özəl sektorun inkişafı ilə bağlı aidiyyəti dövlət qurumlarına tapşırıqlar verilir, sahibkarların istək və təklifləri dinlənilir, il ərzində görüləcək işlər müzakirə olunur, yaradılacaq yeni istehsal müəssisələrinin dayanıqlı fəaliyyəti, perspektivləri dəyərləndirilir.



Muxtar respublikanın sənaye siyasətində diqqətçəkən məqamlardan biri də sənayeləşməyə yeni yanaşmaların tətbiq olunmasıdır. Çünki hazırkı dövrdə uğurlu sənaye siyasəti rəqabətqabiliyyətlilik, səmərəlilik, ekoloji təhlükəsizlik meyarlarına uyğun qurulmaqla, həm də yüksək texnologiyaların tətbiqini, elmi araşdırmalarla bağlılığı zəruri edir. Nəzərə alaq ki, hazırda bütün dünya IV sənaye inqilabının ilkin dövrünü yaşayır. Bu sənaye inqilabının hələlik əldə olunmuş yeniliklərini tətbiq etmədən uğurlu və uzunmüddətli sənayeləşmə dövrünə qədəm qoymaq mümkünsüzdür, daha doğrusu, rentabelsizdir. Təsadüfi deyil ki, son illərdə muxtar respublikanın elm və ali təhsil müəssisələrində elmi yeniliklərin təcrübədə, o cümlədən istehsalatda tətbiqi ilə bağlı görülən işlər, texnopark və startap təcrübələrinin geniş yayılmasına dövlətin birbaşa dəstəyi bu qəbildən görülən işlərin mahiyyətini ortaya qoyur.



Nəhayət, sənaye siyasətində diqqəti cəlb edən məsələlərdən biri də insan amili və yaxud müasir sənayenin işçisinə necə çevrilməkdir. Əgər biz XX və XXI əsrin sənaye işçilərini və ya sənayedə idarəetməni müqayisə etsək, fərqli mənzərələrlə rastlaşacağıq. Çünki keçmiş dövrlərdən fərqli olaraq bu gün müasir sənayedə çalışan işçi yalnız deyilənləri etmir, həm də işi idarə edir. Planlı iqtisadiyyatdan fərqli olaraq indi istehsal proseslərinə azad sahibkar düşüncəsi ilə yanaşma, komanda ruhu ilə işləmək bacarığı, rəhbər-işçi-müştəri üçbucağında yeni korporativ dəyərlərin yaradılması, sadə dildə desək, müasir biznesin ortaya qoyduğu zərurətlərdir. Buna görə də müasir sənaye həm də yeni idarəetmə vərdişlərinin formalaşdırır. Ümumi götürsək, muxtar respublikada təhsilin inkişafında yeni innovasiyaların tətbiqi, peşə təhsili müəssisələrində ixtisaslı kadr hazırlığı, ali və orta ümumtəhsil müəssisələrində müvafiq ixtisasların hamiliyə verilməsi və digər bu kimi tədbirlər müasir dövrün işçisini yetişdirməkdə böyük rol oynayır. Nəzərə alaq ki, bu gün muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələr məzun olub ixtisası üzrə işə başlarkən, artıq adaptasiya dövrü yaşamır, sadəcə, üzərinə rəsmi məsuliyyəti götürür.

*Bütün bunları ümumiləşdirsək, deyə bilərik ki, artıq muxtar respublikada illərdir, oturuşmuş sənaye siyasəti mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci ili muxtar respublikada “Sənaye ili” elan etməsi isə mövcud siyasətin davamlılığını şərtləndirir.*

Səbuhi HƏSƏNOV

## Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin 30 illiyi münasibətilə yubiley tədbiri keçirilib



Dünən Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin 30 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirindən öncə nümayəndəliyin kollektivi Fəxri xiyabana gələrək müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül-çiçək dəstələri qoyub. Görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın məzarı da ziyarət edilib.

Yubiley tədbirində əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının, eləcə də Xocalı şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov 30 illik yubiley münasibətilə kollektivi və tədbirdə iştirak edən qonaqları təbrik edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin təsis edilməsi ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasi fəaliyyətinin Naxçıvan dövrünün unudulmaz, parlaq səhifələrindən birini təşkil edir. 1990-cı illərdə ölkəmizdə baş qaldırmış hərc-mərcliyin, anarxiyanın, vətəndaş qarşıdurmasının, dövlətçiliyin itirilməsi təhlükəsinin fonunda, eyni zamanda Naxçıvanın ağır blokada şəraitində, sosial çətinliklərlə dolu, problemli, çətin, mürəkkəb siyasi-iqtisadi bir dövr yaşadığı vaxtda Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan Respublikasının dövlət təsisatları, mərkəzi icra hakimiyyəti orqanları arasında gündəlik əlaqələrin təmin edilməsini həyata keçirə biləcək belə bir dövlət orqanının dahi rəhbərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində fəaliyyət göstərdiyi dövrdə Ali Məclisin Qərarı ilə təsis edilməsi yalnız dahi liderin böyük uzaqgörənliklə verə biləcəyi tarixi qərarlardan idi.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Daimi Nümayəndəliyin fəaliyyətinin təmin edilməsini daim diqqətdə saxlaması, onun respublikamızın paytaxtında muxtar respublikanın layiqli təmsilçisi kimi inkişafına böyük imkanlar açması dahi şəxsiyyət Heydər Əliyevin yoluna dönməz sədaqətin bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2010-cu il 21 aprel tarixli Fərmanı ilə Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin yeni Əsasnaməsini təsdiq etmiş və onun əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir. Daimi Nümayəndəliyin fəaliyyətinin zəruriliyini bir daha ortaya çıxarmış, minlərlə Naxçıvan sakininin problemlərinin həll olunmasında yeganə dövlət orqanı kimi onun yaxından və birbaşa iştirakını zəruri etmişdir. Daimi Nümayəndəlik naxçıvanlılar üçün Bakı şəhərində bir dayaq nöqtəsi, doğma ocaq kimi müraciət ünvanı olaraq fəaliyyət göstərməkdədir.

Vurğulanıb ki, Daimi Nümayəndəlik bu gün özünün inkişaf dövrünü yaşayır. Ali Məclis Sədrinin “Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin işçilərinin əməyinin stimullaşdırılması və onların sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” 2018-ci il 12 fevral tarixli və “Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin yeni ştat strukturunun təsdiq edilməsi haqqında” 2020-ci il 28 yanvar tarixli sərəncamları Daimi Nümayəndəliyə göstərilən yüksək dövlət qayğısının daha bir bariz nümunəsidir.

Diqqətə çatdırılıb ki, Daimi Nümayəndəlik əsas vəzifəsi kimi Azərbaycan Respublikasının dövlət orqanları ilə Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanları arasında gündəlik əlaqələrin təmin olunması işini həyata keçirir. Paytaxt Bakıda muxtar respublika ilə bağlı bütün məsələlərdə yaxından iştirak edir. Muxtar respublikada əldə olunan nailiyyətlər, tətbiq edilən yeniliklər, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, elmə, təhsilə, mədəniyyətin inkişafına göstərilən xüsusi diqqət və qayğı, aparılan genişmiqyaslı islahatlar, müasir dövrün tələblərinə həmahəng olan məqsədyönlü işlər, ölkə Prezidenti cənab İlham Əliyevin hər il Naxçıvana səfərləri zamanı muxtar diyarın əldə etdiyi inkişafı yüksək qiymətləndirməsi Daimi Nümayəndəliyin də uğurlu fəaliyyəti üçün əsas stimul olub.

Fəaliyyətlərinə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edən Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri bildirib ki, kollektiv bundan sonra da çalışacaq ki, muxtar respublikanın rəhbəri tərəfindən yaradılan təmiz, münbit, hərtərəfli imkanlardan istifadə edərək hər zaman qarşıda duran vəzifələrin öhdəsindən ləyaqətlə gəlsin, tapşırıqları və vəzifələri daha yüksək səviyyədə, əzmkarlıqla yerinə yetirsin.

Sonra Daimi Nümayəndəliyin Əlaqələndirmə sektorunun böyük məsləhətçisi, 1-ci dərəcəli dövlət qulluqçusu Ramazan Abbasov, gənc əməkdaş, Daimi Nümayəndəliyin Ümumi işlər sektorunun aparıcı məsləhətçisi, 2-ci dərəcəli dövlət qulluqçusu Arzu Aslanzadə çıxış edərək Daimi Nümayəndəliyin keçdiyi inkişaf yolundan, fəaliyyətinə göstərilən dövlət qayğısından, prioritet vəzifələrdən bəhs ediblər.

Milli Məclisin deputatları – AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev, Eldar İbrahimov, Siyavuş Novruzov, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov yubiley tədbirində çıxış ediblər. Qeyd olunub ki, Prezident cənab İlham Əliyevin, eləcə də Ali Məclisin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə bu gün Bakıdakı Daimi Nümayəndəlik fəaliyyətini ləyaqətlə davam etdirir, qədim diyarımızda əldə olunmuş nailiyyətlərin ictimaiyyətə çatdırılmasında, ölkəmizin ictimai həyatında yaxından iştirak edir. Çıxış edənlər Prezident cənab İlham Əliyevin və Ali Məclisin Sədri cənab Vasif Talıbovun müasir Naxçıvanın inkişafındakı xüsusi xidmətləri sayəsində Naxçıvanın Bakı şəhərindəki Daimi Nümayəndəliyinin respublikamızda çoxşaxəli və uğurlu fəaliyyət göstərdiyini bildirərək kollektivi 30 illik yubiley münasibətilə təbrik ediblər.

Tədbirdə Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin, xüsusilə, son onillikdəki fəaliyyətini əks etdirən fotoslayd nümayiş etdirilib, Daimi Nümayəndəliyin 30 illik fəaliyyət yolunu özündə əks etdirən fotoalbom və kitab sərgisi ilə tanışlıq, bədii kompozisiyaya baxış olub.

**AZƏRTAC**

*Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət ediblər, sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.*

## Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 30 illik yubileyi qeyd edilib



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən yubiley tədbirini giriş sözü ilə açan komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli Naxçıvan gömrük xidmətinin keçdiyi inkişaf yolundan danışıb. Vurğulanıb ki, 24 fevral 1992-ci il tarixdə ümummilli lider Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılması ilə muxtar respublikada vahid mərkəzdən idarə olunan gömrük siyasətinin tətbiqinə başlanılıb.

Ötən dövrdə muxtar respublika gömrük sisteminin müasir tələblər səviyyəsində qurulması, xidmətin səmərəli təşkili istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Gömrük orqanlarının strukturu daha da genişləndirilib, infrastruktur yenidən qurulub, maddi-texniki baza müasir tələblər səviyyəsində formalaşdırılıb. İnformasiya-kommunikasiya texnologiyalarından geniş istifadə nəticəsində gömrük sistemi tamamilə avtomatlaşdırılıb.

Vurğulanıb ki, həyata keçirilən islahatlar nəticəsində keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olan Naxçıvan gömrüyü muxtar respublikanın iqtisadi təhlükəsizliyinin etibarlı təminatçısına çevrilib. Dövlət büdcəsinin formalaşmasında gömrük orqanlarının rolu artıb, gömrük işinin iqtisadi göstəriciləri yüksəlib. 2021-ci ildə dövlət büdcəsinə köçürülmüş gömrük ödənişlərinin həcmi son beş illə müqayisədə 4 dəfə çox olub.

Əməliyyat-axtarış fəaliyyətinin genişləndirilməsi, texniki nəzarət vasitələrindən səmərəli istifadə, əməkdaşların peşəkarlığının artırılması, kinoloji xidmətin keyfiyyətinin yüksəldilməsi, risk profillərinin təkmilləşdirilməsi nəticəsində gömrük sahəsində hüquqpozma hallarına qarşı mübarizənin gücləndiyini önə çəkən komitə sədri son beş ildə muxtar respublika ərazisindən tranzit hərəkət edən yük nəqliyyat vasitələrindən 22 cinayət faktı üzrə, ümumilikdə, 900 kiloqramdan artıq, təkcə 2021-ci ildə isə 4 cinayət faktı üzrə 567 kiloqrama yaxın narkotik vasitənin aşkarlandığını qeyd edib.

Diqqətə çatdırılıb ki, gömrük orqanları tərəfindən ticarətin və beynəlxalq daşımaların asan və sürətli formada həyata keçirilməsi istiqamətində görülən işlər Naxçıvanın tranzit potensialından daha geniş istifadəyə imkan yaradıb. Bu gün muxtar respublikanın 70-dən çox ölkə ilə ticarət əməliyyatları apardığını qeyd edən komitə sədri “Yaşıl dəhliz” buraxılış sisteminin tətbiqinin xarici iqtisadi fəaliyyətlə məşğul olan biznes subyektləri üçün dövlət tərəfindən yaradılmış münbit şəraitin bariz nümunəsi olduğunu, 2021-ci ildə muxtar respublika gömrük orqanlarında həyata keçirilən ixrac əməliyyatlarının 58 faizinin “Yaşıl dəhliz” iştirakçılarının payına düşdüyünü önə çəkib.

Göstərilən etimada, hərtərəfli dövlət qayğısına və yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıq edən Səhət Həbibbəyli gömrük orqanları tərəfindən vətəndaşlara, o cümlədən biznes subyektlərinə göstərilən gömrük xidmətlərinin səviyyəsinin artırılması istiqamətində tədbirlərin davam etdiriləcəyini vurğulayıb və kollektivə uğurlar arzulayıb.

Naxçıvan gömrük xidmətində ən çox iş stajına malik olan Culfa Gömrük Postunun böyük inspektoru, gömrük xidməti mayoru Nüşabə Sadıxova 33 ildir, xidmət etdiyi gömrük orqanlarının keçdiyi inkişaf yoluna nəzər salıb. Qeyd olunub ki, bu gün gömrük işinin bütün sahələrində əldə olunan nailiyyətlər əvvəlki illərlə müqayisəyə gəlməyəcək səviyyədədir.

Komitənin Əməliyyat və təhqiqat şöbəsinin inspektoru, gömrük xidməti leytenantı Sərxan Mustafayev gömrük sistemində kadr islahatları və gəncləşmə mövzusunda çıxış edib. Qeyd olunub ki, son illərdə muxtar respublika gömrük sistemində struktur və infrastruktur islahatları ilə paralel olaraq kadr islahatlarının da uğurla aparılması nəticəsində bu gün Naxçıvan gömrük sistemi özünün güclü, peşəkar və gənc kadr potensialı ilə seçilir.

Sonra komitənin İnzibati idarəetmənin təşkili bölməsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Minayə Nəsirova muxtar respublika gömrük orqanları əməkdaşları barəsində tətbiq olunan həvəsləndirmə tədbirləri barədə məlumat verib. Komitənin Əməliyyat və təhqiqat şöbəsinin rəisi, gömrük xidməti mayoru Mahir Orucov qaçaqmalçılıqla mübarizə sahəsində əldə olunan nailiyyətlərə görə “İlin gömrükçüsü” elan olunaraq mükafatlandırılıb. Xidmətdə fərqlənən bir qrup gömrük əməkdaşına da təltiflər təqdim olunub.

Sonda tədbir iştirakçıları Naxçıvan televiziyasının hazırladığı “İnkişaf edən gömrük xidməti” adlı filmə baxıblar.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

*Dünən “Naxçıvan” Universitetində “Türk Dünyası Dijital Vətəndaşlığı” layihəsinin məlumatlandırma günü keçirilib.*

## “Türk Dünyası Dijital Vətəndaşlığı” layihəsinin məlumatlandırma günü olub



Görüşdə Qaziantəp Universitetinin professoru Ərdal Bay, layihənin Azərbaycan üzrə koordinatoru Könül Məmmədova, Naxçıvan Dövlət Universitetinin nümayəndələri və universitetin müəllim-tələbə heyəti iştirak edib.

Universitetin rektoru, dosent Nurlana Əliyeva qonaqları salamlayaraq bildirib ki, “Naxçıvan” Universiteti 2021-ci ilin sentyabr ayından etibarən bu layihənin rəsmi iştirakçılarından biridir. Layihənin əsas məqsədi bölünmələrə baxmayaraq, ərazi baxımından bir inteqrasiya olmasa da, oxşar və bənzər cəhətləri olan eyni soydan gələn gənclərin təhsil, mədəniyyət, tarix və iqtisadiyyat kimi sahələrdə ortaq məxrəcdə hərəkət etmələrini təmin etməkdir. Məhz buna görə də bu layihə Türk dünyasında ortaq bir məxrəcdə hərəkətetmə qabiliyyətinin inkişafına töhfə verəcək bir layihədir.

Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli tərəfindən layihənin məqsədi, tərəfdaşları, layihə çərçivəsində icra olunacaq fəaliyyətlər və gözlənilən nəticələr barədə ətraflı məlumat verilib.

Qaziantəp Universitetinin professoru Ərdal Bay layihənin uzunmüddətli olacağını iştirakçıların diqqətinə çatdırıb. Bildirib ki, “Türk Dünyası Dijital Vətəndaşlığı” layihəsi “bənzərliklərimizi tanıma” istiqamətində atılmış əhəmiyyətli bir addımdır.

Layihənin Azərbaycan üzrə koordinatoru Könül Məmmədova hazırda dünyanın 9 ölkəsindən 67 universitet ilə əməkdaşlıq protokolunun imzalandığını vurğulayıb. Qeyd edib ki, bu layihə Türk dünyasını əhatə etmək və qardaşlıq hüquqlarını inkişaf etdirmək üçün ən vacib fəaliyyətlərdən biridir.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb

*Naxçıvan Muxtar Respublikası Gənclər Fondu ilə “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti arasında gələcək perspektivlər nəzərə alınaraq qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.*



Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış edərək bildirib ki, fond bir sıra müəssisə və təşkilatlarla qarşılıqlı şəkildə fəaliyyət göstərir, gənclərin intellektual səviyyələrinin inkişafına yönələn müxtəlif səpkili tədbirlərdə, layihələrdə iştirakları təmin olunur. Artıq bir neçə ildir ki, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti ilə də əlaqələr xeyli gücləndirilib, fondun könüllüləri cəmiyyətin reallaşdırdığı layihələrə, təlimlərə qatılaraq bank işinin təşkili sahəsində bilik və bacarıqlara yiyələnməyə çalışırlar. Qarşılıqlı əməkdaşlığa dair imzalanacaq memorandumdan irəli gələn vəzifələrin icrası, o cümlədən tələbə təqaüdü proqramının tətbiqi gənclərə səmərəli fəaliyyətləri üçün əlverişli şərait yaratmaqla onların yeni bilik və ideyalar qazanmasına imkan verəcək.

“Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Əsədulla İsgəndərov çıxış edərək bildirib ki, “Naxçıvanbank” ASC Azərbaycan Respublikasının ilk regional bankıdır. Bank əhaliyə, sahibkarlıq subyektlərinə universal bank və maliyyə xidmətini kompleks şəkildə göstərməkdədir. 2021-ci ilin sonuna qədər, ümumilikdə, 344 milyon aktiv, 141 milyon kredit portfeli, 47 mindən artıq plastik kartla fəaliyyət davam etdirilib. Bank gənclərlə iş sahəsində də öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışır. Belə ki, ötən illər ərzində fəal gənclərin iştirakı ilə bir sıra layihələr və təlimlər uğurla reallaşdırılıb. Gənclər Fondu ilə imzalanan yeni memorandum gənclərin bankçılıqla yaxından tanışlığı, onların rəqəmsal bilik və bacarıqlarının artırılması, intellektual düşüncə qabiliyyətlərinin stimullaşdırılması, istedadlı gənclərin üzə çıxarılması, vaxtlarının səmərəli dəyərləndirilməsi, sosial aktivliyinin artırılması və təqaüd proqramı üzrə birgə tədbirlərin keçirilməsi istiqamətində əməkdaşlığı inkişaf etdirmək məqsədi daşıyır.

Tədbir diskussiya şəklində davam edib, memorandum imzalayan tərəflər arasında qarşılıqlı şəkildə qiymətli hədiyyələr təqdim olunub.

**✍ Nail ƏSGƏROV**

# Erməni faşizminin qanlı silahlarının sərgiləndiyi
## Hərbi Qənimətlər Parkı




***Qarabağda otuz ilə yaxın bir müddətdə davam etmiş erməni işğalına son qoymuş şanlı Vətən müharibəsindən sonra informasiya cəbhəsində davam edən mübarizə düşmənin iç üzünün dünyada ifşa olunması, onun faşist xislətinin, insanlığa qarşı cinayətlərinin daha geniş panoramda işıqlandırılması vəzifəsini qarşıya qoyur. Çünki dünyada qlobal problemlərin kəskinləşdiyi, iqlim, enerji və ərzaq təhlükəsizliyi kimi bəşəri əhəmiyyətli məsələlərin gündəmdə olduğu bir dövrdə, təəssüf ki, faşizmə qarşı da mübarizə aparmaq zərurəti hələ də qalmaqdadır. Ona görə də ötən yüzillikdə dünyanın qara ləkəsi olmuş faşizmin acı sonundan dərs çıxarmayan erməni millətçiliyi, onun ideoloqlarının arxasınca sürünən kütbeyin hay sürüsünün birdəfəlik səsini kəsmək üçün bütün tərəqqipərvər bəşəriyyətin həmrəy olması gərəkdir.***

Adı, mənşəyi və tarixi özlərinə də qaranlıq olan ermənilərin canına hopmuş faşizm ruhu bu gün təkcə qonşuları üçün deyil, bütün dünya üçün böyük bir təhdiddir. Bu azmış kimi faşizm hay arsızlığı ilə birgə mutasiya olunduqda heç bir elmin çözə bilməyəcəyi bir genetik kod əmələ gəlir ki, onun da çarəsi, ancaq "dəmir yumruq" kimi sərt tədbirlərdən keçir. Tarixin ən dəhşətli – Xocalı soyqırımını törətmiş, cəsədləri, qəbirləri təhqir edə biləcək aşağı səviyyədə vandal olan ermənilərin bir etnos kimi faşizmə yuvarlanması təkcə onların əsassız torpaq iddiaları ilə bitmir, tam əksinə, özlərini hamıdan ali səviyyədə göstərən "böyük millət" ideologiyasından da qaynaqlanır. Yer kürəsində guya torpaq, su qədər qədim bir tarixləri olduğunu, utanmasalar Nuh Peyğəmbərdən də qabaq dünyanın ilk sakinləri olduqlarını iddia edə biləcək dərəcədə üzsüz olan ermənilərin bu gedişlərinə dur deyəcək bir güc isə erməni faşizmindən ən çox zərər görmüş Azərbaycan xalqı, onun müzəffər Ordusudur. 44 günlük şanlı Vətən müharibəsindən sonra darmadağın edilmiş erməni ordusunun silahlarının sərgiləndiyi Hərbi Qənimətlər Parkına gələn ziyarətçilər ordumuzun bu gücünün bir daha şahidi olurlar.

Paytaxt Bakı şəhərindəki üçrəngli Azərbaycan bayrağının dalğalandığı Hərbi Qənimətlər Parkında məğlub erməni ordusuna aid vurulmuş və ya döyüş meydanında düşmənin atıb qaçdığı saz vəziyyətdə olan ən müxtəlif hərbi texnika guya məğlubedilməz olan erməni ordusu mifinin puç edilməsi və eləcə də qaniçən düşmənin nə qədər amansız olduğunu bütün dünyaya göstərir. Vətən müharibəsində hərbi qənimət kimi götürülmüş texnikaların yalnız bir hissəsinin sərgiləndiyi Hərbi Qənimətlər Parkında olarkən erməni faşizminin nə qədər məkrli planlar hazırladığını bir daha görmək mümkündür. Parkdakı erməni ordusuna məxsus qadağan edilmiş silahlardan tutmuş kustar üsulla hazırlanmış silahlara qədər bütün ölümsaçan texnika məhz fürsət düşəndə dinc insanlara qarşı hər cür terror əməlləri törətməkdə bir nömrəli olan ermənilərin əl-qolunu açan vasitələr olmuşdur. Mülki obyektlərə qarşı işlədilməsi qadağan olunmuş orta mənzilli "İsgəndər M" və "Smerç" raketləri, Xirosimanı məhv etmiş gücdə nüvə başlığı da daşıya bilən "Toçka-U" raketləri, ağır T-72 tankları, "Kub" zenit-raket kompleksləri, "Qvozdika" özüyeriyən artilleriya qurğuları, avtomatik zenit topları, "Şilka" özüyeriyən zenit qurğuları, "Şturm-S", "Kornet-EM" və "İqla-S" özüyeriyən tank əleyhinə raket kompleksləri, müxtəlif kateqoriyalı zenit, "Qiansit-B", haubitsa topları və minaatanlar, "Qrad" yaylım atəşi kompleksləri, hava hücumundan müdafiə sistemləri, piyadaların döyüş maşınları, yüksək keçid qabiliyyətinə malik hərbi avtomobillər, minalar və müxtəlif yüngül silahlar bu parkda sərgilənir. Göründüyü kimi, təkcə atom bombasının olmadığı erməni cəbbəxanası insanlığa qarşı hər cür cinayətlər törətmək üçün kifayət qədər zəngin olub. Düzdür, texnikalara aid informasiya lövhələrinə baxdıqda onların əksəriyyətinin azı 30 il yaşı, bəzi topların isə 1945-ci ildə istehsal edildiyini gördükdə erməni mifinin nə qədər gülünc və cəfəngiyyat olduğunu, erməni ordusunu maliyyələşdirmiş Hayastan fondunun saxtakar missiyasının genişliyini bir daha görürük. Ümumilikdə, parkda sərgilənən boynubükük erməni texnikalarının vəziyyəti onu deməyə əsas verir ki, hətta saz vəziyyətdə ələ keçirilmiş silahlar belə, uzun müddət baxımsız qalmış, onlara başdansovdu münasibət göstərilmişdir. Bu mənada, təkcə erməni ordusunun deyil, bütün erməni cəmiyyətinin düşdüyü ağır böhran və yoxsulluq girdabının tipik göstəricisidir bu silahlar. Ayrıca olaraq parkda erməni hərbi qulluqçularının gündəlik yaşayış predmetlərinə və ya əsgərlərin qidalarına aid eksponatlar da, əslində, yuxarıdakı fikirləri bir daha təsdiq edir. Parkın girişindən asılan, döyüşdə hərbi qənimət kimi ələ keçirilmiş erməni hərbi avtomobillərinin nömrələrindən düzəldilmiş və üzərində iri hərflərlə yazılmış "Qarabağ Azərbaycandır!" yazısı işğalçının acı sonunu bir daha bütün dünyaya nümayiş etdirir. Çünki istənilən halda indi artıq soyuq bir metal parçası olan bu texnikaların, bəlkə də, 30 il əvvəl 26 fevralda 366-cı rus motoalayının tərkibində Xocalıda dinc əhaliyə qarşı soyqırımı törətmədiyini kim deyə bilər ki? Yoxsa çürük erməni ordusunun əsl döyüşdə nə qədər davam gətirə biləcəyini bütün dünya gördü. Cəmi 44 gün dayana bildilər.








Dənizdən-dənizə gülünc ərazi iddiaları olan ermənilər bir zamanlar Xəzərə qədər yürüşlə ölkəmizi təhdid edərdilər. İndi doğma Xəzərin sahilində, Bakının mərkəzində sərgilənən erməni ordusuna məxsus olmuş ayı kimi yöndəmsiz hərbi texnikaları gördükdə düşünürsən ki, rus dəmiri nə qədər sərt olsa da, əsgərlərimizin cəsarəti, ağlı, zəkasının qarşısında o da, bax beləcə, təpəsindən vurulacaq. Müasir müharibələrin beşinci nəsil ultradəqiq texnologiyalarla aparıldığını, döyüşlərin tək mərmitək hədəf prinsipi ilə aparıldığını nəzərə alsaq, bu silahların, ancaq Gəncənin, Tərtərin, Bərdənin dinc sakinlərini vurmaq üçün yararlı olduğunu demək olar. Bu mənada, ən müasir silahlarla təmin olunmuş, ən çətin döyüş şəraiti təlimi almış qəhrəman Azərbaycan Ordusu bu texnikalarla döyüşmüş erməni əsgər və zabitlərini məhv etməklə, əslində, erməni faşizminin də belini qırmışdır. Beli qırılmış çaqqalın qana susamış dişlərini bir-bir söküb onu acından öldürmək üçün isə indi əlimizdə hər cür əsasımız və daha çox gücümüz var.

**Əli CABBAROV**

---

Yeni nəşrlər

# Sətir-sətir qəhrəmanlıq salnaməsinin izi ilə

***44 günlük şanlı Qarabağ müharibəsində ürəyi Vətən sevgisiylə zirehlənmiş mərd igidlərimizin, şəhidlərimizin, qazilərimizin döyüş meydanında əldə etdiyi tarixi qələbə hələ neçə-neçə şairlərə ilham qazandıracaq, şeirlər, poemalar mövzusuna çevriləcək, neçə-neçə tarixi əsərlər məhz bununla qələmə alınacaq, yazılıb, yaradılıb tarixin səhifələrinə qızıl hərflərlə həkk olunacaq. Onları oxuyub mütaliə etdikcə qazi və şəhid qəhrəmanlarımızın mənalı ömür yolundan özümüzə yol tapacaq, örnək tutacağıq.***




Elə mövzumuzun əsasını da, sözün əsl mənasında, Vətən sevginin təsiri ilə ərsəyə gətirilmiş, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun qazi qəhrəmanlarının döyüş xatirələrinin yer aldığı, dəyərli qələm dostumuz Səfi Abdullanın yaradıcılıq nümunəsi olan "Mərmidən xatirələr" kitabı təşkil edir. Bir-birindən maraqlı döyüş xatirələrinin yer aldığı kitabın ilk səhifələri Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Asim Yadigarın "44 gün – qəhrəmanlıq salnaməsi yazdığımız günlər" başlıqlı məqaləsi ilə qarşılayır bizləri. Asim Yadigarın kitabla bağlı qənaəti də çox maraqlıdır: "Səfi Abdulla mənə gətirdiyi kitabını elə əlyazma şəklində oxudum. Sözün doğrusu, bu kitabda toplanan hər bir yazı bir döyüşçünün, bir qazinin ömür kitabıdır. Həcmindən asılı olmayaraq, bir insan taleyi, onun sevinc və iztirabları gözümüz önündə canlanır. Bu yazılarda biz mərd, mübariz, yağıdan çəkinməyən Azərbaycan oğullarını görürük. Vətən sevgisini hər bir şeydən üstün tutan qazilərimizin çoxu Qarabağa getdiklərini ailələrindən gizli saxlayıb, onları narahat etmək istəməyib. Övladlarının müharibəyə gedəcəyi xəbərini eşidən atalar, analar qürur hissi ilə övladlarına "Oğul, yolunuz açıq olsun", "Dualarımız sizinlədir", – deyib.

Kitabı vərəqləyib növbəti səhifələrə doğru yol aldıqca sanki qəribə, nostalji hisslərin halətini yaşayır insan. Heç görmədiyi, bir dəfə olsun saf havasını ciyərlərinə çəkmədiyi o yerlərin – Qarabağın ecazkar mənzərəsi canlanır gözləri qarşısında. Kitabın bir digər səhifəsində elə şair Asim Yadigarın "Bu yol Zəfər yoludur" şeiri bələdçilik edir bizə. Şair şeirində işlətdiyi bədii çalarlarla və özünəməxsus yaradıcılıq ruhu ilə həm kitabın poetik xüsusiyyətlərinin rəngarəngliyinə rəvac verir, həm də oxucunun maraq dünyasına xitab edərək onu müəllifin daxili aləminin bəhrəsi olan yaradıcılıq nümunəsi haqqında məlumatlandırır. Sanki hələ kitabı oxumamışdan yer alan mövzular haqqında bizi şeirin diliylə qısa səyahətə çıxarır.

*Soldurub baharını, gətirdik sərt qışını,*
*Axıdıb bu yerlərdə düşmənin göz yaşını,*
*Dəmir yumruqla əzdik onun murdar başını.*
*Bu yol qeyrət, cəsarət, bu yol hünər yoludur,*
*Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur.*

Hələ mövzumuzun əvvəlində də qeyd etdiyimiz kimi kitab başdan-başa naxçıvanlı qəhrəman qazilərimizin 44 günlük Qarabağ döyüşləri barəsindəki bir-birindən maraqlı, yeri gələndə qürurlandıran, yeri gəldikdə qəmləndirən xatirələri ilə doludur. Həmin xatirələrin hər birində Vətən sevgisi var, el qeyrəti, torpaq yanğısı, yurda bağlılıq var. Onları oxuyub təhlil etdikcə anlayırsan ki, müharibənin ən şiddətli anında belə, ordumuzun qəhrəmanlarının qəlbində yalnız bir məqsəd var, o da torpaqlarımızın tezliklə düşmən işğalından azad olunaraq ərazi bütövlüyümüzün təmin olunması və Böyük Qələbə müjdəsilə öz evlərinə qayıtmalarıdır. Döyüşlərin aramsız olduğu məqamlarda belə, heç bir əsgər yaralanmaq istəmir. Qorxur ki, əgər yaralanarsa, məcburi surətdə onu geri təxliyə edəcəklər və o, döyüş yoldaşlarını tərk etməli olacaq. Yazımızın bu məqamına qazi Ceyhun Səfərov xatirələrə aydınlıq gətirir: "Ancaq yaralı-yaralı bizimlə birlikdə döyüşü davam etdirən qardaşlarımız da vardı. Yoldaşımızın biri belindən qəlpələrlə çox ağır yaralar aldı. Biz onu çox çətinliklə geri qayıtmağa razı sala bildik. Amma bir neçə gün sonra biz onun döyüşə, yanımıza qayıtdığını gördük. Bizimlə birlikdə yaralı vəziyyətdə döyüş yolu qət edərək Şuşaya qədər gəlib çatdı və Şuşa uğrunda gedən döyüşlərdə vuruşaraq şəhidlik zirvəsinə ucaldı".

Füzulinin, Cəbrayılın, Xocavəndin və Qubadlının alınmasında fəal iştirak edən qazi Rüstəm Allahverdiyev öz xatirələrində deyir: "Hadrutda başımıza maraqlı bir hadisə gəldi. Qəsəbə tamamilə azad olunandan sonra biz qruplar şəklində evləri gəzib ara-ma-tarama edirdik. Bu zaman köhnə bir evin çardağından səs-küy eşidildi. Biz təhlükəsizlik tədbirlərini alıb həmin yerə getdik. Məlum oldu ki, Cəbrayıl rayonundan pərakəndə şəkildə qaçan erməni əsgərləri burada gizləniblər. Silahsız olan əsgərləri çardaqdan çıxardıq. Onların bir neçəsi yaralanmışdı. Bizi görən kimi ağlayıb yalvarmağa başladılar ki, onlara toxunmayaq. İçlərindən rus dilində danışan biri ağlaya-ağlaya dedi ki, bizim heç bir günahımız yoxdur. Bizi bura niyə gətiriblər, onu da bilmirik".

Bir digər qazimiz, Ağdamın, Suqovuşanın işğaldan azad olunmasında şücaət göstərən Ceyhun Davudov xatirələrində həmin acılı günləri həm xatırlayır, həm də oxuculara bütün qəlbi ilə hiss etdirə bilir: "Yanımdakı qumbaralardan birini götürdüm və əsgərim Əli Seyidova dedim ki, düşmən bir azdan, çox güman ki, buraya gələcək, görsün sağ qalan varsa, onu da öldürsün. Əgər belə olsa, bu əlimdəki qumbara ilə özümüzü partlatmalıyam, sən razısan? Seyidov dedi ki, komutan, razısan nədir? Mən sizinlə ölümə də qürurla gedərəm".

Kitabın hər sətrində, hər bir qazi xatirələrində Vətən-xalq-ordu birliyinin ən gözəl nümunəsi, təcəssümü var. Yuxarıda xatirələrindən sitat gətirdiyimiz qazilərimiz kimi, onların timsalında olan onlarla qazilərimizin sətirlərə sığmayan döyüş qəhrəmanlığı, şücaəti, igidliyi var. Yeni nəşr kitabın sonundakı Vətən müharibəsinin tarixi xronikasını əks etdirən fotoları ilə də dəyərlidir. Bunları bir araya gətirib tarixin yaddaşına köçürmək isə Vətənə xidmətin digər bir adıdır. Belə bir sanballı mənbəyə görə qələm dostumuz, gənc ziyalı Səfi Abdullanı təbrik edir, ona gələcək fəaliyyətində də yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Məcid RƏŞADƏTOĞLU**

---

# Təcrübə kursları davam edir

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində Tibbi statistlərin fevralın 21-dən start verilən nəzəri və praktik təcrübə kursları davam edir. Təcrübə kurslarına nazirliyin tabeliyində olan tibb müəssisələrindən 26 nəfər cəlb olunub. Kurs nazirliyin Tibbi statistika və informasiya sektorunun aparıcı məsləhətçisi, həkim-statist Xavər Babayeva tərəfindən tədris olunur.

Nəzəri və praktik məşğələlərdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi üzrə icra olunan Dövlət proqramlarının icrasının statistik hesabatlarının hazırlanması qaydaları tədris olunur. Məşğələlərdə aylıq, illik rəsmi statistika hesabat formalarının işlənməsi qaydaları, əmək iqtidarsızlığı vərəqələrinin, yenidoğulmuşların, ölümlərin, hamilələrin qeydiyyatı, ambulator gəlişlər, evə gedişlər, stasionara daxil olan xəstələr, kabinələrin fəaliyyəti, fizioterapiya, böyüklərin və uşaqların dispanserizasiyası və digər səhiyyə xidmətlərinin statistik hesabatlarının düzgün hazırlanması öz əksini tapır.

Təcrübə kursları 18 iş günü davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanı qürurla paylaşırıq...




Bu qürurdan qanad bağlamışıq, gözəlliyinə vurulmuşuq Naxçıvanın. Biz Naxçıvan sevdalıyıq. Elimizi, obamızı qarış-qarış gəzirik. Gördüklərimiz qəlbimizi iftixarla doldurur. Belə məmləkətdə yaşamağımızla fəxr edir, diyarımızın bugünkü qüdrətindən güc alırıq. Bu düşüncələrlə 19 fevral tarixində muxtar respublikanın ən fəal sosial şəbəkə istifadəçiləri ilə birlikdə Naxçıvan şəhərindən Şahbuz rayonunun Ağbulaq kəndinə yola çıxdıq. Hamar yolları, yolboyu müasir tikililəri gördükcə heç bir zaman geri qayıtmağını istəmədiyim keçən əsrin 90-cı illəri yadıma düşdü: Naxçıvan şəhərindəki internat məktəbində oxuduğum o çətin illər. Heç yadımdan çıxmaz, müəllimimiz şagirdlərə "Bizim şəhər" adlı inşa yazmağı tapşırmışdı. Həmin gün lampa işığında ağ vərəqə nə yazacağımı saatlarla düşündüm. Quruca adı olan boynubükük şəhərdən nə yazasan axı... Naxçıvanın uçuq-sökük, alçaq möhrə divarları arasında keçən, toz-torpaqlı, həm də palçıqlı dar küçələrini necə ifadə edəsən? Şükürlər olsun ki, bunlar dünəndə qalıb. İndi biz blokada informasiyasını yaran Naxçıvanımızı dünyaya tanıdırıq. İstisi, qazı olan rahat evlərdə yaşayırıq, əlimizdə mobil telefonlarla dünyanın hər yeri ilə əlaqə qururuq, bölgələrimizin bugünkü müasir simasını böyük zövqlə telefonun yaddaşında əbədiləşdiririk. Bu gün Naxçıvanda yaşayan insanın hər bir anı onun həyatının ən dəyərli məqamıdır. Bundan da hər birimiz qürur duyuruq. Elə buna görə də Naxçıvanı qürurla paylaşırıq...

Bu, bir reallıqdır ki, sürətli internet təminatı bütün naxçıvanlıların sosial şəbəkələrdən sərbəst istifadəsinə imkan verib. Ona görə də bu gün Azərbaycanda Naxçıvan haqqında ictimai rəyin formalaşması, əhalinin məlumatlandırılmasında bu şəbəkələrdən aktiv istifadə edən naxçıvanlıların rolu da danılmazdır. Qürurvericidir ki, sosial şəbəkələrdə yüzlərlə gənc qədim yurd yerimizin təbliğatına xidmət edən səhifələr yaradıblar. Bunu da xüsusi vurğulamaq istəyirəm ki, onlar yayılan hər hansı dezinformasiya xarakterli məlumatlara düzgün və yerindəcə, həmçinin sərrast cavab verməyi vətəndaşlıq borcuna çeviriblər. Müxtəlif peşəyə sahib olan həmin sosial şəbəkə istifadəçiləri könüllü olaraq bloqçu kimi Naxçıvanı sosial şəbəkələrdən fəxrlə təbliğ edirlər. Əksəriyyəti gənclər olan bu sosial şəbəkə istifadəçilərinin 19-20 fevral tarixlərdə Ağbulaq İstirahət Mərkəzində düşərgəsinin təşkil edilməsi böyük sevinclə qarşılandı. Onlar iki gün ərzində Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun hazırladığı proqram əsasında Ağbulaq kəndində qış turizmi ilə tanış oldular, bloqlar hazırladılar və fotolar çəkdilər. "Sosial şəbəkələrdə Naxçıvanın təbliği" və "Sosial şəbəkələrdə turizmin təbliği" mövzularında təlimlər keçirildi, təlimlərdə Naxçıvanın daha geniş arenada təbliği üçün fikir mübadilələri aparıldı. Fondun əməkdaşları Fikrət Kərimov və Məhəmmədəli Məmmədlinin müşayiəti ilə komandalar üzrə yarışlar keçirildi, layihələr hazırlandı, sonda qalib komanda mükafatlandırıldı.

Sosial şəbəkə istifadəçiləri arasında muxtar respublikanın kənd yaşayış məntəqələrindən gəlmiş gənclər də iştirak edirdilər. Onlar özlərinin yaşadıqları, həmçinin qonşu kəndləri elə gözəl təbliğ edirlər ki, bu gün qısa araşdırma aparsaq, həmin kəndlərlə bağlı onların xeyli sayda paylaşımlarına rast gələrik. Bu paylaşımlardan o yerləri daha yaxından tanımaq imkanı qazanırıq. Qısa bir haşiyə çıxmaq istəyirəm. Şahbuzun Kükü kəndindən olan Zülfüqar Qurbanlı öz kəndinin əsrarəngiz mənzərələrini böyük həvəslə sosial şəbəkələrdə tanıdır. Qısa bir misal. 2019-cu ildə Kükü ərazisində yerləşən Gurbulaq şəlaləsini sosial şəbəkələrdə paylaşdıqdan sonra bu şəlalə haqqında naxçıvanlılar ətraflı məlumata sahib oldular. Artıq üç ildir, bura həm yerli, həm də əcnəbi turistlər səfər edir. Fikrimcə, Naxçıvanın bilmədiyimiz və ya sosial şəbəkələrdə görmədiyimiz belə möhtəşəm təbiət abidələri olduqca çoxdur. Və əcnəbi turistlər belə məkanlara daha çox üz tuturlar. Niyə də tanıtmayaq? Culfa rayonunun Milax kəndindən Loğman Quliyev həvəskar fotoqrafdır. Kənd təsərrüfatı ilə məşğuldur. Amma buna baxmayaraq, o, Culfanın Milax, Ərəfsə, Ləkətağ kəndlərinin əsrarəngiz təbiət mənzərələrini paylaşaraq özünə xeyli izləyici toplayıb. culfa-rayonu adlı "Instagram" səhifəsiylə 10 minə yaxın izləyiciyə çata bilib. Şərurun Mahmudkəndindən Maksun Qasımov, Ordubad rayonundan Sara Əsədova, Ağabala Bağırov, Culfa rayonundan Südabə Əlizadə, Rizvan Əliyev, Kəramət Əliyev, Naxçıvan şəhərindən Şəmil Şahməmmədov, Aytac Cəfərsoylu, Namaz Namazov, Allahverdi Hüseynov, Pnar Yusifli, Xəlil Rzayev, Kamal Yəhyalı, mediadan yaxşı tanıdığımız Məmməd Babayev, Arif Bayramov, Emin Gülməmmədov, Anar Tağıyev və Yaqub İsayev də sosial şəbəkələrdə Naxçıvanın təbliği işinə öz töhfələrini verirlər.

Naxçıvan şəhər sakini Azər Vəliyev 12 minə yaxın izləyici ilə "Facebook"da "Naxçıvan təbiəti" adlı qrup yaradaraq yurdumuzun təbiətsevərlərini bir araya toplaya bilib. Azər Vəliyev təkcə öz çəkdiklərini deyil, başqa sosial şəbəkə istifadəçilərinin paylaşdıqlarını da səhifəyə yerləşdirir. Paylaşımlara yüzlərlə baxış olur, yüzlərlə rəy yazılır. Naxçıvan təbiətinin necə zənginləşdirildiyini və mühafizə edildiyini də bu səhifədən görmək olar. Azər müəllim deyir ki, doğma təbiəti, Naxçıvanı qürurla paylaşmaqdan zövq alır.

Həvəskar fotoqraf Pünhan Məmmədlinin fotolarına da tez-tez rast gəlirik. O deyir ki, böyük sevgiylə,



böyük qürurla Naxçıvanı paylaşır. Naxçıvan şəhərində yaşayan Şahbuzun Şada kənd tam orta məktəbinin biologiya müəllimi Songül Abbasova müasir məktəbini, bu gün düşmənə gözdağı olan Şada kəndini qürurla paylaşır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşı Abdulla Quliyev, Maliyyə Nazirliyinin əməkdaşı Zəhra İsmayılova və Ordubad Rayon Gənclər və İdman İdarəsinin rəisi Hacı Sadiqovun adlarını, xüsusilə çəkməliyəm. Zəhra xanım noahland noahland (Nuhun yurdu) səhifəsiylə muxtar respublikada keçirilən dövlət tədbirlərini ən operativ paylaşan və çoxminli izləyiciyə çatdıran sosial şəbəkə istifadəçisidir. Abdulla Quliyev "Instagram"da sefiabdulla adlı səhifəsiylə 30 minə yaxın izləyici toplaya bilib. Sosial şəbəkə istifadəçiləri arasında ən çox diqqətçəkən isə Babək rayonunun Xəlilli kəndindən olan Lalə Allahverdiyevanın "Oxunması zəruri olan kitablar" adı ilə sosial hesabı olub. 10 minə yaxın izləyiciyə çatan bloqçu oxunması zəruri olan kitablardan qısa çıxarışlar etməklə yanaşı, kitab oxumağın faydaları ilə bağlı paylaşımlar edir. Səhifəsində stori bölümündə Naxçıvanın təbliğatına da geniş yer verir.

Qeyd edim ki, düşərgədən Azərbaycan və ingilis dillərində qısa videoicmal hazırlanaraq #naxçıvanıqürurlapaylaşırıq haştağı ilə sosial şəbəkələrdə paylaşılıb. Bundan sonra bu haştağla Naxçıvanın təbliğatı ilə bağlı paylaşımlar olacaq. Bir neçə gün ərzində bu haştağla yüzlərlə paylaşım edilib, sosial şəbəkə istifadəçiləri ətrafına kifayət qədər izləyici toplaya bilib. Vurğulayım ki, bu səhifələrin bir fərqi var ki, orijinaldır və statistikanı yüksək göstərmək üçün panel qoşulmayıb.

***Bəli, danışaraq izahedilməz hər şeyi, bəzən göstərmək yetər, əslində. Heyrətamiz doğma diyarı tanıtmaq üçün Naxçıvanı qürurla paylaşan sosial şəbəkə istifadəçilərinin bloqçu kimi peşəkarlaşmasında keçirilən bu tədbir böyük stimul oldu. Bu tədbirin iştirakçıları adından mənəvi və maddi dəstəyə görə Ali Məclis Sədrinə minnətdarıq. Əmin etmək istəyirik ki, bundan sonra da bu iş davam edəcək, doğma elimizin daha geniş platformalarda təbliğatı işində əlimizdən gələni əsirgəməyəcəyik. Sonda onu da vurğulamaq istəyirəm ki, bu sosial şəbəkə istifadəçilərini bir araya gətirən bir səbəb var: Naxçıvan sevdası. Onların könüllü olaraq təbliğat işi ilə məşğul olması təqdirolunasıdır. Alqışlanmalıdır... Digər gənclərimizin də bu prosesə qoşulmalarına böyük əminliyimiz var.***

***...Bir sözlə, Naxçıvan sevdalısı könüllü təbliğatçılar...Yol uzun, karvan bizik...***

**Sara ƏZİMOVA**
*jurnalist-bloqçu*

*Günümüz, güzəranımız*

## Zəhmət dolu yaz ayları
## *və ya torpaq ona qayğı göstərənə borclu qalmaz…*

***İki fəslin kəsişdiyi – qışın şaxta-boranının tədricən başa çatdığı, yazın ılıq nəfəsinin duyulduğu bu günlərdə insanın da ürəyində kök salmış arzulara, istəklərə çatmaq həvəsi çaylar kimi coşur, sellər kimi daşır. Rayihəsini yaz mehinin qanadlarıyla ətrafa yayan çiçəklərin şəhərimizi al-əlvan rənglərə boyamasına saylı günlər qalır. Baharın müjdəçiləri olan quşların cəh-cəhi təbiətin nazlı gəlini olan yazın cilvəli gəlişindən xəbər verir. Təbəssümlə boylanan Günəşin ılıq nəfəsi ana torpağı qış yuxusundan oyadır.***

Qəlbi riqqətə gətirən, insana yaşama sevinci bəxş edən yaz fəslini bineyi-qədimdən bolluq, bərəkət, firavanlıq simvolu kimi qarşılayaraq əzizləyiblər. Elimizin müqəddəs bayramı sayılan Novruza qədər olan İlaxır çərşənbələr də elə el arasında "əziz günlər" kimi dəyərləndirilir. Novruzaqədərki günlər həm də evdə, həyətdə-bacada təmizlik işlərinin aparıldığı dövr hesab olunur. Həyətyanı sahələrdə torpaq yumşaldılır, gülkarlıqlar yenilənir, ağaclarda budama işləri aparılır. Sanki hər şey fəslin yenilənməsinə hazırlaşır.

Ruzi-bərəkətin bünövrəsi qoyulan yaz fəsli, eyni zamanda nemətlər bolluğu yaradan, torpağa bağlı, əkinçi, biçinçi, heyvandar insanların zəhmət qayğılı günlərinin başlandığından xəbər verir. Türk dünyasının ulu ozanı Dədə Qorqud vəsiyyət etdiyi kimi, qoruduğun torpağı mütləq əkib-becərməlisən, yaxud da əkib-becərdiyin torpağı mütləq qorumalısan. Torpağı sevmək, qorumaqla yanaşı, həm də onun nazını çəkmək ulularımızdan bizə miras qalıb. İnsanlar ta qədimdən torpağa ruzi-bərəkət yeri kimi baxıb, ona baş əyib, alın təri axıdıb. Bu qiymətli sərvətdən lazımınca bəhrələnən, onu özünə iş yeri hesab edən insanları da torpaq yanıltmayıb. Onlara sağlam can, bol ruzi-bərəkət verib. Atalarımız əbəs yerə torpağı misal gətirərək deməyiblər: – "Sən mənə tər ver, mən sənə zər verim!" Əlbəttə ki, əziyyət çəkən bəhrəsini də görür. Əkinçi zəhməti bəhrə verir, torpaq ona baş əyənə səxavətini əsirgəmir, bərəkətini birə-min edir.



Tarixən aqrar diyar kimi tanınan muxtar respublikamızda torpağa mehr-ülfət salan insanlar bu qiymətli sərvətin qədrini bilsələr də, sovet dönəmində torpağa bağlanan insanlar onun səxavətindən lazımınca bəhrələnmək imkanlarından məhrum ediliblər.

Qədim diyarımızda ötən əsrin 90-cı illərinin sonlarında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə torpaq islahatlarına başlanılması, kənd adamlarının öz torpaqlarına sahiblənməsi bu qiymətli sərvətdən daha səmərəli istifadəyə, məhsul bolluğu yaratmağa, bununla da, insanların öz gün-güzəranlarını daha yaxşı qurmağa, nəticə etibarilə, diyarımızın iqtisadi gücünün, daxili bazarda yerli istehsalın çəkisinin artmasına stimul oldu. Sonrakı dövrlərdə aqrar sahənin inkişaf etdirilməsi məqsədilə bir sıra hüquqi-normativ aktların qəbul edilməsi, müxtəlif istiqamətlərdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatının elmi əsaslarla inkişafına imkan verdi, güclü sahibkarlar dəstəsi yetişdi. Yeri gəlmişkən sahibkarlıq fəaliyyətinə yaşıl işıq yandırılması da bu sahədəki çətinlikləri aradan qaldırdı. Bunun da müqabilində kənd adamları gün-güzəranını yaxşılaşdırıb, taxıl bolluğu yaratdılar. Bu gün isə bol məhsul götürmək üçün imkanlar daha da genişlənib. Çünki dövlətimiz kənd təsərrüfatına, aqrar bölməyə hərtərəfli diqqət, qayğı göstərir. Muxtar diyarımızda aqrar sahədə həyata keçirilən islahatlar və göstərilən dövlət dəstəyi ərzaq təhlükəsizliyinin təmin edilməsinə etibarlı zəmin yaradıb. İqtisadiyyatın real sektorunun əsas istiqamətlərini müəyyən edən Dövlət proqramlarının həyata keçirilməsi, lizinq xidmətlərinin genişləndirilməsi, taxıl və soyuducu anbarların həcminin artırılması, istixana komplekslərinin, quşçuluq, balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması nəticəsində muxtar respublikanın kənd təsərrüfatında inkişaf təmin edilib. Artıq muxtar respublikada kənd təsərrüfatı məhsullarının intensiv amillər hesabına artırılması üçün yeni innovativ texnologiyalar tətbiq edilir, dünyanın aparıcı ölkələrində istehsal olunan kənd təsərrüfatı texnikaları istifadə olunur. Aqrar sahədə ailə təsərrüfatlarının formalaşdırılması, belə təsərrüfatların tələbatına və sifarişlərinə uyğun texnikaların alınıb gətirilməsi, kənd təsərrüfatının inkişafında texnoloji yeniliklərin tətbiqi və səmərəli metodlardan istifadə ilə bağlı maariflələndirmə işlərinin aparılması, rayon İcra hakimiyyətləri və İqtisadiyyat Nazirliyi tərəfindən ailə təsərrüfatlarının müraciətlərinin araşdırılması və kreditlərin verilməsi davam etdirilir.

İndi diyarımızda "kəndimiz", "ocağımız" ifadələri tez-tez səslənir. Dövlət kəndlərimizi müasirləşdirir, qayğımıza qalır, mühüm infrastruktur layihələri həyata keçirilir, kəndlərimizə şəhər mədəniyyəti gətirilir, qəsəbə görkəmi verilir. Bu kəndin ocaqlarını isə kəndin zəhmətkeş insanları, zəhmətkeş torpaq adamları yandırır, şöləsini gur edir və beləliklə də, elimizin, obamızın ruzi-bərəkəti bol, canı sağ, əhvali-ruhiyyəsi yüksək, kəndi kənd, ocağı ocaq olur. Bu gün hər bir kəndli muxtar respublikamızda gedən prosesləri ürəkdən dəstəkləyir. İnsan amilinə qayğı onları muxtar diyarımızın daha da çiçəklənməsinə töhfələrini verməyə ruhlandırır. Qayğı olan yerdə zəhmətə qatlaşıb yaxşı yaşamaq, firavan həyat sürmək bu gün onların keçmiş arzularını xoş reallığa çevirib.

**Gülcamal TAHİROVA**

### *İtmişdir*

Babək rayonunun Nəhəcir kəndində yaşamış İsgəndərov Əli Bayraməli oğlunun adına olan JN-115A və JN-115B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

* * *

"Elnarə-79" MMC (VÖEN-2000050811) hüquqi sənədləri( nizamnamə, reyestrdən çıxarış, VÖEN şəhadətnaməsi) itdiyindən etibarsız sayılır.

* * *

Abdullayev Vaqif Veysəl oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

İsmayılov Orxan Vaqif oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və
Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 180